Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

# REGİON

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

№ 71 (1199) 15 aprel - 16 aprel 2016-cı il

# Yaz ətirli Cəlilabad

**Cəlilabad qışın imtahanından üzüağ çıxdı. Yazda isə bu yerlərin başqa bir gözəlliyi olur, yaşıllığa bürünən təbiət adamı valeh edir. Zəhmətsevərliyi ilə ucalan və Cəlilabadı ucaldan rayon sakinləri bu fəslidə daha əzmə çalışır, yeni uğurlar qazanmaq istəyirlər.**

***Texnika-kəndlinin etibarlı dostu***

Ölkədə kənd təsərrüfatı məhsulları istehsalının artırılmasını stimullaşdırmaq və əhalinin ərzaq təminatını yerli istehsal hesabına daha da yaxşılaşdırmaq məqsədilə dövlət başçısı İlham Əliyevin tapşırığına uyğun olaraq Dövlət Torpaq Fondu hesabına iri fermer təsərrüfatlarının yaradılması prosesi davam etdirilir. Son illər Cəlilabad rayonunda da bu sahədə xeyli işlər görülüb və proses uğurla davam etməkdədir. Təsərrüfatlarda müasir texnologiyanın tətbiqi nəticəsində torpağın münbitliyinin artırılmasına, suvarma suyuna qənaət olunmasına, torpağın şoranlaşması və eroziyaya uğraması proseslərinin qarşısının alınmasına və ən əsası orta məhsuldarlığın ən azı iki dəfə artırılmasına şərait yaradılıb. Artıq fəaliyyət göstərən müasir təsərrüfatlarda növbəli əkin sisteminin həyata keçirilməsi kənd təsərrüfatını rentabelli sahəyə çevirməklə yanaşı, bir sıra məhsulların istehsalının artımına səbəb olub. Bu da ərzaq buğdasına, yüksək reproduksiyalı buğda toxumuna, heyvandarlıqda, quşçuluqda istifadə edilən və əsasən idxal olunan yem məhsullarına olan tələbatın yerli istehsal hesabına ödənilməsinə imkan verir.

Belə təsərrüfatlardan söhbət düşəndə ”Avanqard” MMC-nin adı öndə çəkilir. Təsərrüfatın investisiya layihəsinin ümumi dəyəri 5,9 milyon manat təşkil edir ki, bunun da 1,9 milyon manatı sahibkarın şəxsi vəsaiti, 4 milyon manatı isə güzəştli kredit vəsaiti hesabına həyata keçirilir. Təsərrüfat əsasən toxumçuluq istiqamətində fəaliyyət göstərir və yüksək reproduksiyalı buğda toxumuna olan tələbatın yerli istehsal hesabına ödənilməsində əhəmiyyətli rol oynamaqdadır. Ərazidə yeraltı qrunt sularının axıdılması məqsədilə 4860 metr uzunluğunda drenaj qazılıb, ABŞ-ın ”Lindsay” şirkətinin istehsalı olan süni yağış yağdırma üsulu ilə müasir suvarma sistemləri quraşdırılıb. Təsərrüfatın fasiləsiz su ilə təminatını həyata keçirmək üçün 3 kilometr uzunluğunda mövcud kanal təmizlənib, tutumu 50 min kubmetr olan süni göl yaradılıb, 2,3 kilometrlik yeni elektrik xətti çəkilib.

**“... Cəlilabad sürətlə inkişaf edir, həm sosial, həm iqtisadi məsələlər uğurla öz həllini tapır. İnsanların rahatlığı və iqtisadi inkişafın dərinləşməsi üçün bir sıra infrastruktur layihələri həyata keçirilir...”**

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***

Təsərrüfat üçün ofis binası, nasosxanalar və texnikaların saxlanılması məqsədilə avtopark tikilib. ”Aqrolizinq” ASC vasitəsilə Almaniyanın ”Claas” şirkətinin istehsalı olan texnika və aqreqatlar gətirilib. Layihənin icrası nəticəsində 50-dən çox yeni iş yeri yaradılıb.

Açılışında ölkə rəhbəri İlham Əliyevin də iştirak etdiyi bu qabaqcıl müəssisə ”Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın həyata keçirilməsinə öz töhfəsini verir.

***Rahat mənzillər və Cəfərxanlıya gedən yol***

Azərbaycanda yol-nəqliyyat infrastrukturunun yenidən qurulması işi, yeni yolların salınması, mövcud olanlarının isə əsaslı şəkildə yenidən qurulması ilə bağlı layihələr uğurla davam etdirilir. Bu gün beynəlxalq və respublika əhəmiyyətli magistral yolların salınması ilə yanaşı, yerli əhəmiyyətli, rayon və kənddaxili yolların müasir səviyyəyə çatdırılmasına xüsusi diqqət verilir. Dövlət başçısının tapşırıqlarına uyğun olaraq, ölkəmizin şəhər və rayonlarında mövcud avtomobil yollarının əsaslı təmiri və ya yenidən qurulması ümumilikdə regionların sosial-iqtisadi inkişafına mühüm töhfələr verir. Cəlilabad rayonunun Alar-Təzəkənd-Üçtəpə-Əliqasımlı-Cəfərxanlı yolu da bu baxımdan vacib əhəmiyyət daşıyır.

Tikintisinə 2014-cü ilin mayında başlanılan bu yolun inşası yüksək səviyyədə və keyfiyyətlə aparılıb. Yolun istifadəyə verilməsi sakinlərin rahat və təhlükəsiz hərəkətini təmin etməklə yanaşı, həmin kəndlərin inkişafında da mühüm rol oynayır. Avtomobil yolunun ümumi uzunluğu 21 kilometr, eni 8 metrdir. Yol dördüncü texniki dərəcəlidir. Bu yola 130 min kvadratmetrlik ikiqat asfalt döşənib. Altı yaşayış məntəqəsini - Alar, Təzəkənd, Üçtəpə, Əliqasımlı, Cəfərxanlı və Gülməmmədli kəndlərini əhatə edən yol ümumilikdə 23 mindən çox əhaliyə xidmət göstərir. Bu kəndlərdə yaşayan əhali indi rahat və təhlükəsiz yoldan istifadə edir, onlara göstərilən diqqət və qayğıdan razı qaldıqlarını bildirirlər.




Cəlilabad Rayon İcra Hakimiyyəti yaşayış məntəqələrinin qazlaşdırılmasını da daim diqqət mərkəzində saxlayır. Dövlət başçısının bu məsələ ilə bağlı verdiyi tapşırıqların icrası sürətlə davam etdirilir. Novruz bayramı ərəfəsində rayonun Komanlı kəndinə də mavi yanacaq verilib. Bu münasibətlə kənddə təşkil edilən mərasimdə SOCAR prezidenti Rövnəq Abdullayev, Cəlilabad Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov və ictimaiyyət nümayəndələri iştirak ediblər. Mərasimdə diqqətə çatdırılıb ki, 442 abonenti olan kəndin qazlaşdırılması üçün birpilləli sistem əsasında 2380 metr uzunluğunda müxtəlif diametrli polietilen və 31379 metr uzunluğunda müxtəlif diametrli metal borularla daşıyıcı və məhəlldaxili qaz xətləri çəkilib, 442 ədəd sayğac və fərdi tənzimləyici quraşdırılıb.

Açılış mərasimində dövlətin regionlara qayğısı və bu istiqamətdə görülən işləri diqqətə çatdıran Cəlilabad Rayon İcra Hakimiyyəti başçısı Əziz Əzizov qeyd edib ki, son bir ildə ”Azəriqaz” İstehsalat Birliyi rayonun 43 kəndini təbii qazla təmin edib. Əziz Əzizov hazırda ölkədə ”Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın uğurla icra edilməsindən, yeni-yeni sosial layihələrin həyata keçirilməsindən söz açıb, Cəlilabadda yaşayış məntəqələrinin sürətlə qazlaşdırıldığını tədbir iştirakçılarının diqqətinə çatdırıb. Komanlı kəndinin sakinlərini təbrik edib, təbii yanacağın hər bir mənzilə sevinc, xoşbəxtlik və xeyir-bərəkət gətirməsini arzulayıb.

Tədbirdə çıxış edən SOCAR prezidenti Rövnəq Abdullayev son illər ölkənin hər yerində qaz təchizatı sisteminin yenidən qurulması, kənd və qəsəbələrin qazlaşdırılması istiqamətində görülmüş məqsədyönlü tədbirlərdən danışıb. O, qeyd edib ki, bütün bu işlər xalqımızın rifah halının daha da yaxşılaşmasına hesablanıb.

Kənd sakinləri və ictimaiyyət nümayəndələri yaşayış məntəqəsinə təbii qazın verilməsinə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.




**(Ardı var)**

***E. CƏBRAYILOĞLU***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ